Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– N.F.Nəsibova, R.N.Hüseynəliyev

Etiraz verən Əliyev Bəxtiyar Nazim oğlunun *(ünvan:Bakı şəhəri, Bülbülə qəsəbəsi, S.Bəhlulzadə küç., döngə 5, ev 4)* nümayəndəsi Əliyev Təvəkkül Hacı Əli oğlunun *(ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi, ev 3, mənzil 53) və*

qarşı tərəf “ELAS-A” MMC-nin *(ünvan:Bakı şəhəri, Yasamal rayonu, H.Zərdabi pr, ev 49)* nümayəndəsi Dadaşov Vüsal İmamverdi oğlunun *(ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Azərbaycan küç., tv 38, mən. 24)* iştirakı ilə

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

15.08.2017 il tarixdə “ELAS-A” MMC-yə məxsus “Afrika şiri” adlı əmtəə nişanının 05, 35 və 39-cu siniflərin əmtəələri və xidmətləri üzrə qeydiyyatına qarşı *(qeydiyyatı təsdiqləyən N 2015 0582 nömrəli şəhadətnamə; qeydiyyat tarixi – 03.04.2015; ilkinlik – 13.03.2015; siniflər: 03, 35, 39)* Əliyev Bəxtiyar Nazim oğlunun nümayəndəsi Əliyev Təvəkkül Hacı Əli oğlu tərəfindən “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, “ELAS-A” MMC-nin müraciətinə əsasən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən “Afrika şiri” adlı əmtəə nişanı qeydiyyata alınmışdır.

Əmtəə nişanı qeydə alınarkən “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun aşağıdakı müddəalarının pozulmasına yol verildiyi səbəbindən onun ləğv edilməsini zəruri hesab edirlər. “ELAS-A” MMC tərəfindən “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin “a” və “b” bəndlərinin tələbləri pozulmuş, fərqlənmə qabiliyyətinə malik olmayan

əmtəə nişanı, yəni əsas amillərlə fərqlənməyən nişan qeydiyyata alınmışdır. Qeydə alınmış "Afrika şiri" adlı əmtəə nişanının Afrika qitəsi ilə heç bir əlaqəsi yoxdur. Həmin qida əlavəsi Çin Xalq Respublikasında istehsal olunduğu halda istehlakçılara onun coğrafi mənşəyi haqqında qabaqcadan və bilərəkdən yanlış məlumat vermək "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə ziddir. Çin Xalq Respublikasında istehsal edilmiş qida əlavəsinə "Afrika şiri" adının verilməsi həmin işarənin coğrafi mənşəyi kimi hesab oluna bilər, lakin əmtəə nişanı kimi qeydiyyata alına bilməz. Qanunun " Əmtəə nişanını qeydə almaqdan imtina edilməsinin mütləq əsasları" adlı 5-ci maddəsinin "f" bəndinin tələblərinə əsasən "əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanlarının qeydə alınmasına yol verilmir". Qeyd olunanları nəzərə alaraq "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası qanununun5-ci maddəsinin "a", "b" və "f" bəndlərini rəhbər tutaraq "ELAS-A" MMC-yə verilmiş 2015 0582 nömrəli "Afrika şiri" adlı əmtəə nişanının qeydiyyatının ləğv edilməsi haqqında müvafiq Qərar qəbul edilməsini Apellyasiya Şurasından xahiş etmişdir.

Qarşı tərəf "ELAS-A" MMC-nin nümayəndəsi Dadaşov Vüsal İmamverdi oğlu Apellyasiya şurasına ərizə ilə müraciət edərək bildirmişdir ki, Əliyev Bəxtiyar Nazim oğlu qeydiyyata alınmış "Afrika Şiri" əmtəə nişanının sahibi "ELAS-A" Məhdud Məsuliyyətli Cəmiyyətinin razılığı olmadan ona məxsus əmtəə nişanının əhatə etdiyi əmtəə və ya xidmətlərlə eyni əmtəə nişanından qanunsuz istifadə etdiyi üçün ona 2017-ci ilin yanvar ayından dəfələrlə rəsmi xəbərdarlıq edilmiş, həmin ilin fevral ayında isə ona qarşı məhkəmədə iddia qaldırılmışdır. B.Əliyev məhkəmə mübahisələrini uduzduqdan sonra belə bir ərizə verərək qərəzli olaraq dövlət orqanları və məhkəmələri yanıltmaq məqsədi daşıyır. 2 saylı Bakı İnzibati-İqtisadi məhkəməsi tərəfindən 23 may 2017-ci il tarixdə iddia təmin edilərək yekun qətnamə çıxarılmış, qətnamədən cavabdeh tərəfindən apellyasiya şikayəti verilmiş, Bakı Apellyasiya Məhkəməsinin 28 sentyabr 2017-ci il tarixli qətnaməsilə 2 saylı Bakı İnzibati-İqtisadi məhkəməsinin 23 may 2017-ci il tarixli qətnaməsi qüvvədə saxlanılmışdır. Bu zaman Əliyev Bəxtiyar məhkəməni uzatmaq məqsədilə vəsatət verərək Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Apellyasiya Şurasına etiraz ərizəsi verdiyini bildirmiş və məhkəmənin uzun müddət təxirə salınmasını xahiş etmiş, lakin vəsat rədd edilmişdir. Əliyev Bəxtiyar Nazim oğlu "Afrika şiri" əmtəə nişanlı məhsullara tam bənzəyən "Afrika şiri gold" adlı məhsullarını satışa çıxarmış, istehlakçıları çaşdırmaqla saxta məhsullar satır. "AFRİKA ŞİRİ" adlı qida əlavəsi olan məhsulları istehsalını və satışını "ELAS-A" Məhdud Məsuliyyətli Cəmiyyəti 2012-ci ildən həyata keçirir. Şirkətin təsisçisi və qanuni təmsilcisi olan direktoru Eminov Asif Şahbəndiyar oğlu bu müddətdə şirkətin işgüzar nüfuzunu yüksəltmək, "AFRİKA ŞİRİ" əmtəə nişanlı məhsulun istehsalı, ticarəti, tanıdılması və reklamına külli miqdarda vəsait xərcləmişdir. Şirkət təsis olunmamışdan əvvəl isə bir neçə il bir həkim mütəxəssis kimi bu məhsulun istehsalı və satışı ilə bağlı hərtərəfli biznes analiz, araşdırma və marketink işi aparmış, böyük səy və əmək sərf etmişdir. Məhsulun qablaşdırma şəkli, eləcə də üzərindəki bütün məlumat və rəsmlər bilavasitə əqli fəaliyyətinin şəxsi əməyinin nəticəsidir. Beləliklə məhsul və əmtəə nişanı təmamilə təsis etdiyi "ELAS-A" MMC-yə məxsusdur. <u>"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə görə əmtəə nişanı — sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşmasıdır (kombinasiyasıdır). Həmin qanunun 4-cü maddəsinə görə əmtəə nişanı kimi aşağıdakı nişanlar qeydə alınır: sözlər, şəxsi adlar, hərflər, rəqəmlər, təsviri elementlər, əmtəələrin forması və ya onların qablaşdırılması, rənglərin və yuxarıda göstərilənlərin hər hansı uzlaşması.</u> Belə ki, <u>*Əliyev Bəxtiyar Nazim oğlunun etiraz ərizəsinin heç bir əsası yoxdur. İstehlakçılara yanılda biləcək nişanlardan söhbət gedə bilməz.*</u> Sözlər və təsviri elementlər <u>*2015-ci ilin mart ayında əmtəə nişanı kimi qeydə alınması üçün Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə təqdim edilmiş, qanunla müəyyən edilmiş qaydada araşdırma, ekspertiza aparılmış, zəruri olan əlavə sənədlər təqdim olunduqdan və tədqiq edildikdən sonra müvafiq qaydada "Afrika şiri" əmtəə nişanı məhdud çərçivədə siniflər üzrə qeydiyyata alınmışdır*</u>. <u>*Məhsul spesifik olduğundan geniş istehlakçılar kütləsi tərəfindən istifadə edilmir, yəni məhdud çərçivədə istehlakçılara müraciət edir. Buna görə də məhdud siniflər üzrə qeydiyyata alınması üçün müraciət edilmişdir. Məhsulun tərkibi barədə ətraflı*</u>

*məlumat üzərində verilir, Məhsulun xammal kimi tərkibindəki məhsulların əksəriyyəti dünya bazarında da xammal olaraq satılır (Alibaba, Amazon elektron ticarət obyektləri və s.), heyvan və bitki mənşəli olduqları bildirilir. Beləliklə istehlakçıları yanılda biləcək hər hansı nişandan söhbət gedə bilməz.* “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinin (a) bəndinin tələbinə görə, Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələrə və ya xidmətlərə aid başqa şəxsin adına qeydə əvvəl alınmış və ya qeydə alınmaq üçün iddia edilmiş əmtəə nişanları eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır. Həmin Qanunun 10-cu maddəsinin tələbinə görə, əmtəə nişanının ilkinliyi bu Qanunun 9-cu maddəsinə uyğun olaraq iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən müəyyənləşdirilir. Qeyd olunanları nəzərə alaraq Əliyev Bəxtiyar Nazim oğlunun “ELAS-A” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “Afrika Şiri” adlı əmtəə nişanının qeydiyyatının etibarsız sayılması haqqında ərizəsini rədd edilməsini xahiş etmişdir.

Apellyasiya şurasının iclası zamanı qarşı tərəfin nümayəndəsi Dadaşov Vüsal İmamverdi oğlu ərizəsinə əlavə təqdim edərək bildirmişdir ki, “Afrika Şiri” əmtəə nişanı qeydiyyata alınmamışdan əvvəl ,3 ildən artıq bir müddətdə Eminov Asif və onun təsis etdiyi “ELAS – A” şirkəti tərəfindən yaradılaraq istifadə edilmiş, bu müddətdə bazarda özünə yer tutumuş, istehlakçıların böyük rəğbətini qazanmışdır. Məhz bundan sonra – artıq bazarda özünə layiqli yer etdikdən sonra, “ELAS-A” MMC 2015-ci ildə“Afrika Şiri” əmtəə nişanının qeydiyyatı üçün müraciət etmişdir. Qeyd olunan faktlar idxal olunan malların gömrük bəyannamələri və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Respublika Sanitariya–Karantin müfəttişliyinin verdiyi sanitar-epidomoloji rəy və gigiyenik sertifikatlarla təsdiq olunur. “Afrika Şiri” sözünu şəkil və müvafiq dizayn ilə birlikdə şirkətin təsisçisi Asif Eminov kəşf etmiş, öz məhsuluna bu adı və nişanı vermiş, bu ad və nişanla bazarda mal öz keyfiyyəti ilə yüksək rəğbət qazanmışdır. Müxtəlif heyvan, bitki və quş adlarının, şəkillərinin əmtəə nişanı kimi uzlaşdırılması dünyada geniş yayılmışdır, dünyanın bütün ölkələrində vardır. Odur ki, “Afrika Şiri” sözünün istehlakçılarda yanlış təsəvvür yaratması iddiasının əsası ola bilməz. Qədim zamanlarda məhsulun tərkibində olan bir sıra komponentlərin afrikadakı şir və digər vəhşi heyvanlardan alınmasına baxmayaraq hazırda məhsul tamamilə bitki tərkibli olaraq istehsal olunur. Bir neçə ildir ki, Türkiyədə istehsal olunur “Afrika Şiri” əmtəə nişanlı məhsullar artıq Türkiyənin məşhur dərman, əczaçılıq və kosmetika məhsulları firmaları olan “BEREKET İLAÇ” (Bereket İlac Kozmetik Ticarət A. Ş. Şirkəti) və “BİTKİZANE İLAÇ” ( Bitkizane ilaç ve bitkisel ürünler üretim Ltd. Şti. Şirkəti) firmaları ilə “ELAS-A” MMC-nin birgə istehsalıdır. Türkiyə əczaçılıq məhsullarının və xidmətlərinin, habelə tibbi xidmətərin, tibbi texnologiyaların yüksək səviyyədə inkişaf etdiyi ölkələrdəndir. Odur ki, məhsulun Türkiyədə istehsal olunması təşkil edilmişdir. Türkiyədə məhsulun istehsalını birgə həyata keçirən “BEREKET İLAÇ” (Bereket İlac Kozmetik Ticarət A. Ş. Şirkəti) və “BİTKİZANE İLAÇ” (Bitkizane İlaç ve Bitkisel Ürünler Üretim Ltd. Şti. Şirkəti) firmaları, uzun onilliklərdir bu sektorda fəaliyyət göstərirlər. Firmalarİ SO 9001, HACCP, İSO 22000 ve GMP (Good Manufacturing Practice) Standartlarına sahibdirlər. Əsas istehsal obyekti Bursa şəhərində olmaqla Türkiyənin bir çox bölgələrində təsisləri vardır. “Afrika Şiri” əmtəə nişanı ilə bağlı Əliyev Bəxtiyar Nazim oğlu ilə “ELAS-A”MMC arasındakı məhkəmə mübahisəsi son instansiya məhkəmə orqanında baxılaraq yekunlaşmışdır. Azərbaycan Respublikasının Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2-2(102)-71/2018 nömrəli 17 yanvar 2018-ci il tarixli qərarı ilə “Afrika Şiri” əmtəə nişanının “Elas-A” MMC-yə məxsus olduğu, cavabdeh Əliyev Bəxtiyar Nazim oğlunun qanunsuz olaraq əmtəə nişanından istifadə etdiyi və buna görə də dəymiş zərəri ödəməli olduğuna dair qərar qəbul edilmişdir. Qeyd olunanları nəzərə alaraq Əliyev Bəxtiyar Nazim oğlunun etirazının əsassız hesab edilməsini və “Afrika Şiri” əmtəə nişanının qeydiyyatının qüvvədə saxlanılmasını xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən iddiaçının nümayəndəsi Əliyev Təvəkkül Hacı Əli oğlunun və qarşı tərəfin nümayəndəsi Dadaşov Vüsal İmamverdi oğlunun çıxışını dinləyib, hesab edir ki, etiraz təmin olunmamalıdır.

Apellyasiya şurası təqdim edilən sənədləri araşdıraraq müəyyən etdi:

“Afrika şiri” adlı əmtəə nişanı 05, 35 və 39 -cü sinifin əmtəələri və xidmətləri üzrə 03.04.2015-ci il tarixdə “ELAS-A” MMC-nin (ünvan:Bakı şəhəri, Yasamal rayonu, H.Zərdabi pr, ev 49) adına Azərbaycan Respublikasında 2015 0582 nömrəli qeydiyyata alınmışdır (əmtəə nişanının ilkinlik tarixi – 13.03.2015);

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Sanitariya–Karantin müfəttişliyi tərəfindən “Elas-A” MMC-yə AZ 031 RSK 4701 saylı, 13 aprel 2016-cı il tarixli; AZ 031 RSK 16412 saylı, 12 dekabr 2016-cı il tarixli; AZ 031 RSK 17415 saylı, 30 noyabr 2017-ci il tarixli Gigiyenik sertifikatlar verilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Sanitariya–Karantin müfəttişliyi tərəfindən “Elas-A” MMC-yə “Afrika Şiri” adlı qidaya əlavə üçün AZ 031 RSKM 4460 saylı, 17 iyul 2013-cü il tarixli; AZ 031 RSKM 1396 saylı, 17 noyabr 2014-cü il tarixli; AZ 031 RSKM 0507 saylı, 25 iyun 2015-ci il tarixli sanitar-epidemioloji rəylər verilmişdir.

2 saylı Bakı İnzibati-İqtisadi məhkəməsinin 23 may 2017-ci il tarixli qətnaməsinə əsasən cavabdeh Əliyev Bəxtiyar Nazim oğlu tərəfindən “Afrika şiri gold” adlı malların ticarət dövriyyəsinə, o cümlədən həmin malların Azərbaycan Respublikasında idxalına, topdan və pərakəndə satışına qoyulması, həmin malların ticarət dövriyyəsindən çıxarılaraq məhv edilməsi qət edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin 28 sentyabr 2017-ci il tarixli qətnaməsilə 2 saylı Bakı İnzibati-İqtisadi məhkəməsinin 23 may 2017-ci il tarixli qətnaməsi qüvvədə saxlanılmış, həmin qətnamədən cavabdeh tərəfindən kassasiya şikayəti verilmiş və Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 17 yanvar 2018-ci il tarixli qərarı ilə Bakı Apellyasiya Məhkəməsinin 28 sentyabr 2017-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

Apellyasiya şurası müəyyən etdi ki, “ELAS-A” Məhdud Məsuliyyətli Cəmiyyəti “Afrika Şiri” adlı qida əlavəsi olan məhsulların istehsalını və satışını 2012-ci ildən həyata keçirir. Həmin əmtəə nişanı “ELAS -A” şirkəti tərəfindən istifadə edilmiş, bazarda özünə yer tutumuş, istehlakçıların böyük rəğbətini qazanmış və istifadə zamanı fərqləndirmə qabiliyyətinə malik olmuşdur. “Afrika Şiri” adlı qida əlavəsi olan məhsullar “Elas-A” MMC ilə “Bereket İlac Kozmetik Ticarət A. Ş. Şirkəti” ( Bereket A.Ş) arasında “Elas-A” MMC-ə məxsus məhsulların Bereket A.Ş tərəfindən istehsal edilməsi ilə bağlı 01.10.2017-ci il tarixli müqavilə imzalanmışdır. “Bursa Ticaret ve Sanayi Odası” tərəfindən “Afrika Şiri” qida əlavəsinə 0917568 saylı, 23.11.2017-ci il tarixli mənşə şəhadətnaməsi verilmişdir.

İş materiallarına əlavə edilmiş gömrük bəyannamələrindən görünür ki, “Bereket İlac Kozmetik Ticarət A. Ş. Şirkəti” tərəfindən istehsal edilmiş məhsullar “Elas-A” MMC tərəfindən Azərbaycana idxal edilmişdir.

Göründüyü kimi, “Afrika Şiri” əmtəə nişanı “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin “f” bəndi ilə ziddiyət yaratmır.

Şərh edilənlərə əsasən “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu, 1-ci, 4-cü maddələrini, 5-ci maddəsinin “f” bəndini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

**1.** “Afrika şiri” adlı əmtəə nişanının 05, 35 və 39-cu siniflərin əmtəələri və xidmətləri üzrə qeydiyyatına qarşı *(qeydiyyatı təsdiqləyən N 2015 0582 nömrəli şəhadətnamə; qeydiyyat tarixi – 03.04.2015; ilkinlik – 13.03.2015; siniflər: 03, 35, 39)* Əliyev Bəxtiyar Nazim oğlunun nümayəndəsi Əliyev Təvəkkül Hacı Əli oğlu tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi təmin edilməsin.

2. Apellyasiya şurasının qərarının alındığı tarixdən 3 ay ərzində Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev